*PORTRETLƏR*

*ПОРТРЕТЫ*

*PORTRAITS*

**UOT 78.03**

**DOİ: https://doi.org/10.5281/zenodo.16415354**

## VASİF ADIGÖZƏLOV – 90
## "BƏSTƏKARLARIN HƏYATI MUSİQİDİR". V.ADIGÖZƏLOV

**SEVİNC RZAYEVA***
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

***Sitat gətirmək üçün:*** Rzayeva S. Vasif Adıgözalov – 90**.** "Bəstəkarların həyatı musiqidir". V.Adıgözalov // – Bakı: Musiqi dünyası. Beynəlxalq Elmi Musiqi Jurnalı, – 2025.Vol.27/№2 (103), – s.82-89.

## VASIF ADIGOZALOV – 90
## "THE LIFE OF COMPOSERS IS MUSIC". V.ADIGOZALOV

**SEVINC RZAYEVA**
*Doctor of Philosophy in Art History, Associate Professor*

## ВАСИФ АДЫГЁЗАЛОВ – 90
## «ЖИЗНЬ КОМПОЗИТОРОВ – ЭТО МУЗЫКА». В.АДЫГЁЗАЛОВ

**СЕВИНДЖ РЗАЕВА**
*Доктор философии по искусствоведению, доцент*

Musiqi yaratmaq üçün dünyanın ritmini, həyatın ahəngini duymaq kifayət deyil, bunu üçün qəlbin Allah əmanəti olan ruhun və şübhəsiz ki, ilahi vergisi olan istedadın olmalıdır. Bütün bunlar əldə edilmir, dünyaya gələndə insana bəxş edilir. Azərbaycan musiqi mədəniyyətinin çoxəsirlik tarixi səhifəsinə adı yazılmış Vasif Adıgözəlov bütün bu xüsusiyyətlərə malik qüdrətli sənətkar idi.

* ©Sevinc Rzayeva, 2025

CC BY 4.0 DEED
Attribution 4.0 International

Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatı, sağlığında Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, "Şöhrət" və "İstiqlal" ordenli, professor Vasif Adıgözəlov böyük sənətə 60-cı illərdə gəlmişdir.

Azərbaycan bəstəkarlıq məktəbinin ən yaxşı ənənələri üzərində böyüyən, yaradıcılığında, Şərq və Qərb mənəvi dəyərlərinin yüksək bədii-fəlsəfi sintezinə nail olan Vasif Adıgözəlovun yaradıcılıq irsi Azərbaycan klassik musiqi mədəniyyətinin ayrılmaz tərkib hissəsidir.

Vasif Zülfüqar oğlu Adıgözəlov 1935-ci il iyul ayının 28-də Bakıda məşhur ifaçı Zülfü Adıgözəlovun (1898-1963) ailəsindşə dünyaya gəlmişdir. Onun istedadı Bülbül adına orta ixtisaas musiqi məktəbində oxuyarkən meydana çıxır. O, fortepiano sinfində oxumaqla yanaşı bəstəkarlığa da maraq göstərir. Belə ki, şagird Vasif Adıgözəlovun yazdığı "Yan tonqalım" mahnısı Radio müsahbiqəsində mükafata layiq görülmüşdür.

Bu uğur onu ruhlandıraraq bir sıra əsərlərin meydana gəlməsinə gətirib çıxardır. Onlardan arfa və kaman üçün sonata, kaman ilə fortepiano üçün fantaziya, fortepiano üçün sonatasının adlarını çəkə bilərik.

1953-cü ildə Bülbül adına orta ixtisas musiqi məktəbini bitirən gənc bəstəkar, elə həmin il Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası – S.R.) bəstəkarlıq fakültəsinə - dünya şöhrətli bəstəkar Qara Qarayevin sinfinə daxil olur. Amma bu Vasif Adıgözəlovun Qara Qarayevlə ilk görüşü deyil. O, 1952-ci ildə ilk dəfə şöhrətli sənətkarla, hələ 10-cu sinif şagirdiykən görüşmüşdür. V.Adıgözəlov öz müəllimi haqqında xatirələrində yazırdı: "1952-ci ilin dekabrında indiki Bülbül adına orta ixtisas musiqi məktəbinin onuncu sinfində oxuyarkən fənn müəllimim, bəstəkar Midhəd Əhmədov mənim fortepiano pyeslərimə qulaq asandan sonra dedi ki, gəl bu pyesləri Qara Qarayevə göstərək. Belə də elədik. Mən öz kiçik əsərlərimi ifa elədim, Qarayevin mənə ilk sualı bu oldu: "Bəstəkar olmaq istəyirsənmi?" Sorğu çox sadədir, ancaq Qarayevin dilində bu üç kəlmənin zəhmi məni tutdu. Təbiidir ki, mən fikrimi bildirdim. O, əlavə etdi: "Bilirsənmi, bəstəkar olmaq nə deməkdir? Bütün həyatın boyu işləmək, müasir musiqinin cürətli addımlarına çatmaq, dinclik bilməmək deməkdir. Narahatlıq deməkdir." Ondan eşitdiyim bu sözlər mənim həyatımın devizi oldu. 1953-cü ildə Qara Qarayevin sinfinə daxil oldum və o gündən ta bu günə qədər mən özümü onun tələbəsi hesab eləyirəm." [1]

Genetik musiqi istedadına, ailə və məktəbdə mükəmməl musiqi tərbiyəsi alması sayəsində V.Adıgözəlov özünü Q.Qarayevin sinfində inamlı hiss edirdi və eyni zamanda fortepiano sahəsindəki gözəl ifaçılıq məharəti isə ona ikinci bir şöbəyə daxil olmaq hüququ verdi. Belə ki, ikinci kursda ona artıq böyük konsertlərdə piano ifaçılığı etibar edilir. Gürcü bəstəkarları Otar Taktakişvili gənc V.Adıgözəlovun ifasında öz əsərini dinləyəndən sonra demişdir: "Mənə bundan yaxşı solist lazım deyil".

Beləliklə, parlaq fortepiano texnikası, improvizasiya bacarığı və əlbəttə ki, Q.Qarayevin dərsləri və məsləhətləri V.Adıgözəlovun bəstəkar üslubunun formalaşmasına çox müsbət təsir göstərirdi. Q.Qarayev yaradıcılığının fəlsəfi mahiyyətindən qidalanan sənətkar, həyatda müəlliminin layiqli davamçısı oldu.

Vasif Adıgözəlovun yaradıcılığının başlanğıcını Azərbaycan Bəstəkarlarının I qurultayında "Simfonik poema" və "Sonata"sının ifa olunduğu 1956-cı ildən hesab etsək, bu debütun çox uğurlu olduğunu görürük. Bu uğurdan həvəslənən bəstəkar "Qəhrəmanlıq" simfonik poema, R.Mustafayevlə müştərək M.F.Axundovun eyniadlı komediyası əsasında "Hacı Qara" musiqi komediyası, diplom işi olaraq Birinci simfoniya kimi bir sıra əsərlər yaradır. Bu əsərlərin yaranma prosesində bəstəkar böyük bir inkişaf yolu keçmişdir və nəticədə təkrarolunmaz, daxilən bütöv və bununla yanaşı çoxşaxəli orijinal üslub meydana gəlmişdir.

O, böyük həvəslə Avropa musiqisini öyrənməklə yanaşı heç bir zaman Qərbin texnoloji modern yeniliklərini kor-koranə qəbul etmir. Bəstəkar ən müasir musiqi dilinin formalarını və texnoloji yeniliklərini öz ana yurdunun milli musiqisinə, onun intonasiya və formalarına uyğunlaşdırır. Onun musiqi düşüncəsinin əsasları və ümumiyyətlə, bəstəkarlıq təfəkkürünün kökləri milli musiqidə və folklordadır. Musiqisi daima geniş dinləyici tələblərinə yönəlmiş bəstəkar, əsərlərində xalq sənəti janrını – aşıq musiqisi, bayatılar, rəqs havaları, mahnılar və xalqa doğma janr olan muğama müraciət edir. V.Adıgözəlov yaradıcılığının janr sferasının olduqca çoxşaxəliliyi və müxləlifliliyi diqqəti cəlb edir. Bu haqda XX əsr Azərbaycan bəstəkarlıq məktəbinin bənzərsiz nümayəndəsi, xalq artisti professor Tofiq Quliyev İ.Efendiyevanın "Васиф Адыгезалов" ("Vasif Adıgözəlov") monoqrafiyasına "Ön söz"ündə görkəmli müasiri haqqında yazmışdır: "Bizim özünəməxsus musiqi həyatımızda elə bir sahə yoxdur ki, V.Adıgözəlov onun inkişafına birbaşa və yaxud bilavasitə təsir göstərməsin. Bəstəkarın çoxcəhətli yaradıcılıq əməyi yaratdığı əsərlərin janr qalereyası baxımından elə möhtəşəmdir ki, hərdən mat qalırsan: "Bir adam bu qədər əsəri necə yaradıb?" onlardan bəzilərini – Azərbaycan musiqi mədəniyyətinin tarixi salnaməsinə daxil olmuş üç simfoniyanı, dörd fortepiano konsertini, kaman, violonçel və orkestr üçün konsert, "Ölülər" operası, "Nənəmin şahlıq quşu" operethtasını, "Odlar yurdu", "Qarabağşikəstəsi", "Çanaqqala" oratoriyalarını, "Novruzum" kantatasını xatırlamaq kifayətdir". [2]

Vasif Adıgözəlov gözəl bəstəkar olmaqla yanaşı, həmçinin musiqi-ictimai xadim, musiqi mədəniyyətinin yorulmaz təbliğatçısı olmuşdur. O, 1960-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasında baş musiqi redaktoru kimi yaradıcı təşkilati işlə məşğul olmuşdur, 1968-ci ildən isə Bəstəkarlar İttifaqının məsul katibi seçilmişdir. Uzun müddət A.Zeynallı adına musiqi məktəbinin direktorku vəzifəsində çalışmışdır. Bakı Musiqi Akademiyasında "Xor dirijorluğu"

kafedrasına rəhbərlik etmiş, 1990-cı ildə isə Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi seçilmişdir.

XX əsrin 60-cı illərində dünya şöhrətli müğənni R.Behbudovla birgə fəaliyyəti onun yaradıcılığının təbliğində mühüm rol oynamışdır. Onun yaradıcılığının mühüm hissəsini təşkil edən lirik mahnıları bəstəkarın 60-cı illərdə formalaşmış bədii üslubunu daha parlaq və qabarıq şəkildə təcəssüm etdirir. V.Adıgözəlovun “Qərənfil” (söz.X.Natəvan), “Yeddi çinar” (söz.R.Rza), “Yuxular” (söz.N.Xəzri), “Yenə o bağ olaydı” (söz. M.Müşfiq), “İntizar” (xalq sözlərinə), “Bakı” (söz.R.Rza), “O qız hanı” (söz.Ə.Kürçaylı) və s. mahnı v.ə romansları Azərbaycan vokal lirikasının incilərindəndir.

60-cı illər eyni zamanda sərbəst yaradıcılıq axtarış illəri, bəstəkarın bədii üslubunun müəyyənləşmə illəridir. Artıq 1961-ci ildə bəstələnmiş bir saylı “Fortepiano ilə orkestr üçün konsert” əsəri yetkin bir bəstəkar qələminin məhsulu hesab edilə bilər. Bu əsəri ilə V.Adıgözəlov bir daha Qara Qarayev sənət məktəbinə mənsubluğunu təsdiq etmişdir. Çünki bu əsər bəstəkarın müəllimi Qara Qarayevə həsr edilmişdir. Həmçinin bu illərdə yaranan “Afrika mübarizə edir” simfonik poemasını, C.Məmmədquluzadənin eyni adlı traji-komediyası əsasında ilk “Ölülər” operasının adlarını çəkmək yerinə düşərdi. Bu operada bəstəkar “milli musiqinin qədim janrları ilə Avropa musiqi mədəniyyətini üzvi şəkildə qovuşdurmaya nail olur.” (İ.Əfəndiyeva). bu illərin nailiyyətlərindən danışarkən həmçinin “kaman və simfonik orkestr üçün konsert”i və Azərbaycan Bəstəkarlar İttifaqının üçüncü qurultayında səslənən “İkinci simfoniya”nın adını çəkmək lazımdır. Onu da qeyd edək ki, bu əsə bəstəkara böyük şöhrət gətirdi.

70-ci illərin əvvəllərində artıq məşhur bəstəkar V.Adıgözəlov “Nənəmin şahlıq quşu” və “Ayrılaq, evlənərik” operettalarını yaradır. Həmçinin 70-ci illərin fəaliyyətini Ümumittifaq miqyasda genişləndirən V.Adıgözəlov Moskvada, Ukraynada həm təşkilati, həm də yaradıcı çıxışlar edir. Bu onun böyük bəstəkar, ustad T.Quliyevlə birgə fəaliyyət dövrüdür.

80-ci illərdə V.Adıgözəlov yeni ideya-estetik istiqamətlərdə, janrlarda intensiv axtarışlar aparır. Azərbaycanın tarixi taleyi ağır sınaqla üz-üzə gələndə Sovet İmperiyasının və onun totalitar ideologiyasının çökməsindən istifadə edən tarixi düşmənlər torpağımıza göz dikəndə böyük bəstəkar əslən Qarabağımızdan olan V.Adıgözəlov vətən taleyi mövzusuna müraciət edərək “Odlar Yurdu” (söz.R.Zəka) və “Qarabağ şikəstəsi” (söz.T.Elçin) oratoriyalarını yaratdı. Bu yeni janr onun üslubunu ideya-emosional, bədii-fəlsəfi baxımdan daha da zənginləşdirdi.

Ümumiyyətlə qeyd etməliyik ki, XX əsrin son ili (1989-1999) V.Adıgözəlovun yaradıclığında yeni və yüksək bir mərhələ idi. Bu dövrdə bəstəkarın yaratdığı üç məşhur əsər “Qarabağ şikəstəsi” (1989), “Çanaqqala” (1996) və “Qəm karvanı” (1999) oratoriyaları musiqi mədəniyyətimizin tarixində XX əsri yekunlaşdıran əsərlər kimi şöhrət qazandı.

Məşhur pianoçu, SSRİ və Azərbaycan SSR xalq artisti, Azərbaycan SSR Dövlət mükafatı laureatı, üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli S.Rzayevanın "Vasif Adıgözəlov. Vətən sevgisi" monoqrafiyasına "Ön söz"ündə bu oratoriyalar haqqında yazmışdır: "Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi", "Çanaqqala" və "Qəm karvanı" oratoriyaları musiqimizdə xüsusi yer tutmuş, ictimai həyatımızda böyük əks-səda doğurmuşdur. Bəstəkarın oratoriyaları xalqımız və tariximizdən bəhs edən, tematik konsepsiyası və qeyri-adi miqyası ilə seçiləcək monumentalizmi özündə üzvi şəkildə ehtiva edən, bununla da musiqimizdə özünə yeni səhifə yazmış möhtəşəm bir triptixdir.

Mübarizə mövzusu ətrafında birləşmiş bu əsərlər bir-birilərini bir növ tamamlayırlar. Əsərlərində qaldırılmış problematik məsələlər zamanımızın nəbzini çox gözəl ifadə edir." [3]

Muskiqisinin konseptuallığını, monumentalizmini, yeni səs diapazonunu bədii-fəlsəfi üslub fərdiliyini müəyyənləşdirən bu əsərləri ilə V.Adıgözəlov artıq ehkamları dağıtmağa, ənənələri dəf etməyə və öz ənənələrini – Qərbdən asılı olmayan milli-bəşəri ənənələr yaratmağa nail oldu. Bunlar artıq yalançı sosializm realizmi bədii metodunun çərçivəsində yaradılmış əsərlər deyildi. Bu əsərlərdə ümumtürk epos təfəkkürünü,  yüksək vətən əxlaqı və milli-mənəvi özünüdərk ehtirası çağlayırdı.

Öz universal bədii konseptuallığı, ifadə vasitələrinin qeyri-adiliyi, dramaturgiyası, səslənmə əzəməti və monumentallığı ilə fərqlənən "Qarabağ şikəstəsi" əsəri oratoriya janrının qəliblərindən çox-çox kənara çıxaraq öz musiqi-poetik konsepsiyasının artıq simfonik həllinə gətirib çıxarmışdır. "Qarabağ şikəstəsi" ənənəvi olaraq "Segah" üstündə oxunan zərbi muğam olsa da, bəstəkar öz fəlsəfi qayəsini əks etdirmək üçün müxtəlif Azərbaycan ladlarına müraciət edir. Məsələn, 2-ci hissədə qaboyun solosu "Humayun" muğamında keçir; bir qədər sonra burada oxunan "Qarabağ şikəstəsi" də ənənəvi deyil, "Qatar" üstündə oxunur. 5-ci hissədə - "Tut ağacı" demək olar ki, tamamilə "Caharigah" muğamı üzərində qurulmuşdur, bu hissənin sonunda yenidən "Humayun" üstündə qurulmuş klarnetin solosu səslənir. əsas yençiliklərdən biri isə, fikrimizcə, bundadır ki, müəllif oratoriyasının teatrlaşmasına böyük diqqət yetirir.

Bu əsərin taleyi ilə bağlı bir maraqlı və ibrətli faktı qeyd etməyi lazım bilirəm. "Qarabağ şikəstəsi"nə dünyanın müxtəlif ölkələrində dirijorluq etmiş bəstəkarın oğlu, tanınmış dirijor, xalq artisti Yalçın Adıgözəlov bu əsərlə bağlı bir xatirəsini bölüşərək deyir: "Oratoriya 1991-ci il yanvarın 20-də Moskvada Çaykovski adına Konservatoriyanın Böyük konsert zalında səsləndi. Zalda ermənilər olduğu üçün konsertin aparıcısı xanım Anna Çexova əsərin adını elan etməkdən çəkinir. O, teatrın rəhbərliyi ilə məsləhətləşərək əsərin adını "Vasif Adıgözəlov: "Şikəstə" oratoriyası adı ilə elan etdi. Bu konsertdən sonra bizim ailə ermənilər tərəfindən hədələrə məruz qalmışdır." [4]

Öz novator yaradıcılığı ilə XX əsr Azərbaycan professional musiqisinin yeni zirvələrini müəyyənşləşdirən V.Adıgözəlovun 3 noyabr 1995-ci ildə keçirilən yubileyi əsl musiqi hadisəsinə çevrildi. Bu zaman o, ümummilli lider Heydər Əliyevin sərəncamına əsasən "Şöhrət ordeni" ilə təltif olundu.

Bir müddət sonra bəstəkar Türkiyə tarixinin şərəfli bir dövründən – məşhur Çanaqqala savaşından alınmış "Çanaqqala" oretoriyasını yazdı.

Hər bir xalqın yaddaşında müəyyən bir tarixi keçmişi simvolizə edən dini-mistik və yaxud başqa tipli sakral, müqəddəsləşdirilmiş hadisələrlə bağlı olan müxtəlif coğrafi məkan və isimlər var. Məsələn, ruslar üçün bu Boradino, fransızlar üçün Vaterloo, ərəblər üçün Qüds, yaponlar üçün Xirosima və Naqasaki, hər birimiz üçün Çaldıran və ya Xocalı belədir. Bu yerlər and yeri olmaqla bərabər, ictimai toplumun kütləvi şüurunda, daha doğrusu, təhtəl şüurunda artıq əbədi olaraq həkk edilmiş geneoloji-mənəvi imperativlərə çevrilir. Bu sırada türklər üçün Çanaqqalanın yeri xüsusidir. XX əsrin ən böyük savaşlarından biri, türk xalqı üçün qəhrəmanlıq və mətanət yeri olan, bir çoxları üçün keçilməzlik və dəhşət andıran, 100 minlərlə insanların və onların sakit ola bilməyəcək ruhlarının son məskəni Çanaqqala!

Sabah Durunun librettosu və Türkiyənin milli şairi Mehmet Arif Ersoyun poeziyası V.Adıgözəlovun ecazkar qəhrəmanlıq-rekviyem musiqisi ilə birləşərək 1 saat 20 dəqiqə davam edən möhtəşəm bir musiqi epopeyasının yaranması ilə nəticələndi. Əsərin uğurlu premyerası 16 oktyabr 1998-ci lildə Türkiyə Prezident Simfonik Orkestrinin zalında Yalçın Adıgözəlovun dirijorluğu ilə baş tutdu.

V.Adıgözəlovun "Çanaqqala" oratoriyasını türk ruhunun yenilməzliyini əks etdirən musiqi abidəsi kimi qiymətləndirmək olar. Bu əsərdə vətənin taleyi, şərəfi milli varlığın rəmzi kimi əks olunur.

Triptixi tamamlayan "Qəm karvanı" ovatoriyası bədii konsepsiyası və estetik qayəsinə görə rekviyem və memorial xarakkterli daşıyır. Bu oratoriya V.Adıgözəlov tərəfindən 1999-cu ildə Rəsul Rzanın müxtəlif illərdə qələmə aldığı şeirlərdən yaranmış libretto əsasında yazılmışdır. Hətta əsərin adı "Qəm karvanı" ifadəsi də şairin bir misrasından götürülüb. Bu əsər bəstəkarın yetkin dövründə və qanlı 20 Yanvar hadisələri, Xocalı soyqırımından 10 illik bir tarixi məsafədə yazılmışdır. Bu əsərində bəstəkar XX əsr tarixində xalqımıza və vətənimizə qarşı baş vermiş dəhşətli faciədən söz açır. Artıq əsərin adından və partituranın başlığında bəstəkarın yazdığı ithafdan – "Müqəddəs şəhidlərimizin əziz xatirəsinə!" oratoriyada sənətkarın necə müqəddəs mövzuya toxunacağı aydın olur. Bu oratoriya irimiqyaaslı əsərdir, qeyri-adi konseptual bir bədii lövhədir və triptixin qapanmasıdır.

Buradakı bütün funksionallıq və yaradılmış bədii obrazlar məhz buna tabe olur. Tarixin təbii prosesin məntiqinə uyğun olaraq öz milli mövcudluğunun, xalqının milli ideyasını – milli mənlik şüurunu, milli özgürlüyünü, onun bütün komponentlərini – dilini, dinini, tarixini, mənəviyyatını, sosial-psixoloji-ruhi mentalitetini qorumaq, bu ideallar uğrunda qurban getmiş bütün şəhidlərin xatirəsinə əbədi ehtiram ifadə etməkdir. Hadisələri xüsusi dəst-xətt ilə canlandıran bu möhtəşəm tablo, triptixin sonu olaraq qəhrəmanlıq eposu kimi yaradılmışdır. Hər üç əsər, o cümlədən "Qəm karvanı" insanların mənəvi ehtiyaclarına tarixi bir cavab idi.

Vətən həsrəti ilə yanıb-tutuşan, onun "qanayan yarası" olan, dəfələrlə müraciət etdiyi Qarabağ mövzusu XXI əsrin əvvəllərində V.Adıgözəlov yaradıcılığında yenidən meydana çıxır. Vətən sevgisi, vətən mövzusu onun bütün yaradıcılığından, bütün əsərlərindən qırmızı xəttlə keçir və nəhayətdə 2003-cü il dekabr ayının 7-də "Natəvan" operasının premyerası Vətən, Qarabağ, Şuşa mövzusunun bir növ kulminasiyası oldu. Operada XIX əsrin II yarısında Qarabağda baş verən hadisələr, Qarabağ hakimi Mehdiqlulu xanın qızı Xurşudbanu Natəvanın Azərbaycan tarixində, mədəniyyətində tutduğu yer, həyat və yaradıcılığı əyani faktlarla əks olmuşdur. "Natəvan" operası tarixi və mədəni baxımdan olduqca böyük əhəmiyyət kəsb edir. Əgər XX əsrin əvvəllərində Üzeyir bəy özünün "Leyli və Məcnun" əsəri ilə Şərqdə ilk opera janrının əsasını qoydusa, V.Adıgözəlov da XXI əsrin əvvəllərində bu janra yeni məna verərək dahi Üzeyir bəyin ənənsini zamanın tələbinə görə uyğun şəkildə, layiqincə davam etdirərək musiqi tariximiz üçün son dərəcə əhəmiyyətli əsər yaratdı. Bu opera XXI əsrin ilk opera nümunəsidir. "Natəvan" operasında lirik mövzular tarixi hadisələrin fonunda cərəyan edir. Əsərdə xalqını, vətənini, torpağını bütün varlığı ilə sevən Natəvan obrazı bu günün və gələcəyin nəsilləri üçün əsl vətənpərvərlik simvoludur.

Tarix Vasif Adıgözəlovu bizdən uzaqlaşdırdıqca zaman onun bir sənətkar kimi milli-mənəvi varlığımız, mədəniyyətimiz üçün əhəmiyyətini dönə-dönə təsdiq edir. Əslində bəstəkarın vəfatından sonra keçən vaxt onun əsərlərinə xalqımızın böyük ehtiyacı olduğunu sübut etməkdədir.

Əgər məndən soruşsalar ki, V.Adıgözəlovun çoxşaxəli yaradıcılığını və istedadını xarakterizə edən başlıca prinsip nədir? Mən tərəddüd etmədən "Melos" sözünü işlədərdim. V.Adıgözəlov musiqini melos kateqoriyası ilə dərk edir. Öz impulsunu və arxitiplərini, şübhəsiz ki, bəstəkar üçün çox doğma olan musiqimizdən (muğamlar, aşıq mahnıları və s.) almış bu kateqoriya, əsrarəngiz melodiya onun bütün bədii konsepsiyaların, musiqi poetikasının, monumental əsərlərinin konstruksiyalarının əsası və ən böyük təkan vericisidir. Çağdaş dövrümüzün ustad bir metodisti olan bəstəkarın məhz bu sahədə yaratdığı incilərin yeri, müasir Azərbaycan musiqisində əvəzedilməzdir.

V. Adıgözəlov əsl-nəcabətli bir nəslin oğlu, böyük şəxsiyyət və istedad sahibi idi. Onun şəxsiyyətində və sənətində Ü.Hacıbəyliyə xas millilik və müdriklik, müəllimi Q.Qarayevdən gələn fəlsəfi-intellektual təfəkkür əbədiləşib.

Gözəl bəstəkar, tanınmış ustad V.Adıgözəlov Azərbaycan musiqi mədəniyyətimizin tarixində heç kəsə bənzəməyən, öz fərdi üslubu ilə seçilən, Şərq və Qərb musiqisinin imkanlarından, janr və formalarından bacarıqla istifadə edən qüdrətli sənətkar idi. Yarıçılpaq və müasirliyin vəhdəti, milli müəyyənlik, alliterasiyaların mozaik düzümü, ritm variasiyaları, monumentallıq və konseptuallıq V. Adıgözəlov musiqisinin bədii-estetik məziyyətləridir. Onun musiqisi də özü kimi qürurludur. Bu qürur millətə və vətənə sevgidən, dövlətçilik duyğusundan, yüksək ziyalılıqdan və əlbəttə ki, inamdan irəli gəlir.

İnam... İnam çox böyük bir hissdir. V.Adıgözəlov hər zaman inanırdı ki, Azərbaycanın işğal altında olan torpaqları tez bir zamanda geri qaytarılacaq və o Qarabağı, doğma yurdu Şuşanı görəcək. Ən böyük arzusu isə "Qarabağ şikəstəsi" oratoriyasının Şuşada səslənməsi idi.

Əziz bəstəkar, gözəl sənətkar, ruhunuz şad olsun!

Torpaqlarımız azaddır! Qarabağ Azərbaycandır!!!

"Qarabağ şikəstəsi" oratoriyası doğma yurdunuz, Qarabağın tacı olan Şuşada, xarı bülbül ətirli, əsrarəngiz təbiətli Cıdır düzündə böyük təntənə ilə səsləndi ( 13 may 2021. Dirijor Y.Adıgozəlov)!

Nur içində yatın! Allah sizə rəhmət eləsin, böyük Bəstəkar!

## Ədəbiyyat

1. Babayeva, H. Vasif Adıgözəlov. Bakı: Ergün,– 1995
2. Эфендиева, И. Васиф Адыгезалов. Баку: –1999
3. Rzayeva, S. Vasif Adıgözəlov. Vətən sevgisi. Bakı: Azərbaycan, – 2017

**Məqalənin redaksiyaya daxilolma tarixi**: 11.04.2025
**Qəbulolunma tarixi**: 27.04.2025